

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 13 (23.900)

*21 yanvar 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*

Qanlı 20 Yanvar faciəsindən 32 il ötür. Sovet imperiyasının Bakıda törətdiyi qanlı qırğının 32-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanını ziyarət ediblər. Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ölkəmizin azadlığı uğrunda həlak olanların əziz xatirəsini ehtiramla yad ediblər.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsi önünə əklil qoyub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bu gün ulu öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhu şaddır. Çünki Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoyaraq torpaqlarımızı erməni işğalından azad edərək bölgədə yeni reallıq yaratdı. İndi həmin ərazilərdə Azərbaycanın üçrəngli bayrağı dalğalanır. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri həyata keçirilir.



## Naxçıvanda 20 Yanvar faciəsinin 32-ci ildönümü yad edilib





Yanvarın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qanlı Yanvar faciəsində həlak olanların və şəhidlərin əziz xatirəsini yad etmək üçün Naxçıvan şəhərindəki Şəhidlər Xiyabanına gəlmişdir.

Ali Məclisin Sədri xiyabandakı Ana abidəsinin önünə əklil qoymuş, şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir.

Sonra Dövlət Himni səslənmişdir.

Ali Məclisin Sədri şəhidlərin məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türk ordusunun şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək güllər qoymuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, mərkəzi icra hakimiyyəti orqanlarının, ali məktəblərin, hərbi hissələrin nümayəndələri, Türkiyə Respublikasının və İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulları, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəsi də şəhidlərin əziz xatirəsini ehtiramla yad etmişlər.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet ordusunun hissələri və xüsusi təyinatlılar tərəfindən Bakı şəhərində dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür. Faciə zamanı 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 744 nəfər yaralanmış və xəsarət almışdır, 841 nəfər qanunsuz həbs edilmişdir. Müstəqil, demokratik dövlət qurmaq amalı ilə ayağa qalxmış Azərbaycan xalqının inam və iradəsini qırmaq, azadlıq eşqini boğmaq məqsədilə törədilmiş 20 Yanvar faciəsi qan yaddaşımızdır. Lakin həmin gün tökülmüş qanlar Azərbaycan xalqının müstəqillik uğrundakı mübarizə əzmini qıra bilmədi, igid oğullarımız şəhidlik zirvəsinə yüksələrək xalqımızın yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini bütün dünyaya nümayiş etdirdilər.

Ümummilli liderimiz Heydər Əliyev yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqımıza qarşı törədilən qanlı cinayətə ilk dəfə etirazını bildirmiş, bəyanatla çıxış edərək faciəni törədənlərin məsuliyyətə cəlb olunmasını tələb etmişdir. Həmin dövrdə sovet imperiyasının rəhbərliyi tərəfindən ciddi nəzarət altında saxlanılmasına



baxmayaraq, ulu öndərimizin bu cəsarətli addımı, qətiyyətli mövqeyi Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizə əzmini daha da artırmışdır. Dahi şəxsiyyət deyirdi: ***"20 Yanvarda Azərbaycanın azadlıqsevər, vətənpərvər insanları xalqımıza qarşı göstərilən ədalətsizliyə görə, Azərbaycan torpaqlarına erməni silahlı qüvvələrinin təcavüzünün qarşısı alınmadığına görə və milli azadlığa nail olmaq üçün ayağa qalxdılar, etirazlarını bildirdilər. Onları boğmaq üçün, əzmək üçün Sovet İttifaqının qoşunları, sovet ordusunun hissələri ölkəmizə basqın etdi. Ancaq qəhrəman övladlarımız özünü qurban verərək Azərbaycan xalqının milli azadlığı üçün, Azərbaycanın müstəqilliyi üçün yol açdılar".***

20 Yanvar hadisələri təkcə sovet qoşunlarının Bakıda törətdiyi qanlı cinayətlərlə tamamlanmamışdır. Həmin gün, eyni zamanda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sərhəd kəndlərinə də erməni silahlılarının işğalçı hücumları olmuşdur. 1990-cı il yanvarın 18-də Şərur rayonunun Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olundu. Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə altında qaldığından, beynəlxalq Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Soveti 1990-cı il yanvarın 19-da "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" tarixi Qərar qəbul etdi. Bu qərara əsasən Naxçıvan MSSR sovet imperiyasının tərkibindən çıxdı. 1990-cı il yanvarın 20-də, Qanlı Yanvar hadisələrinin törədilməsindən 8 saat əvvəl Sədərəyə, muxtar respublikanın digər sərhəd kəndlərinə erməni silahlı dəstələrinin hücumları başlamışdır. Bu, 20 Yanvar faciəsinin ilk qanlı səhifələri idi. Ərazi bütövlüyümüz uğrunda döyüşlərdə naxçıvanlılar düşmənə mərdliklə dayanmış, qəhrəmancasına mübarizə aparmış, şəhidlər versə də, Naxçıvanı qoruyub saxlamışlar.

1990-1993-cü illərdə ulu öndərin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası müdafiə olundu, bu qədim diyarın işğalının qarşısı alındı. Həmin dövrdə ümummilli liderimiz Naxçıvan Muxtar Respublikasında milli dövlətçiliyimizin və müstəqilliyimizin əsaslarını işləyib hazırladı. Uğrunda şəhidlər verdiyimiz üçrəngli bayrağımız ilk dəfə Naxçıvanda qaldırıldı, milli birliyimizin və həmrəyliyimizin əsası qoyuldu.

Ulu öndərin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi qiymət verildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar, 1992-ci il yanvarın 13-də isə "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin bəyanatı" qəbul olundu. Ulu öndər ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi qiymət verilmiş, 1994-cü ildə Milli Məclis faciə ilə bağlı Qərar qəbul etmiş, 20 Yanvar Ümumxalq Hüzn Günü elan edilmişdir.

Azərbaycanın müstəqilliyi uğrunda canlarını qurban verənlərin xatirəsi bu gün də yüksək tutulur. ***"1990-cı ilin 20 yanvarında Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çox sayda şəhid verdi. Lakin onun iradəsi sınmadı və milli ruhu sarsılmadı. Həmin qırğın zamanı ümummilli mənafelərin müdafiəsi naminə canlarından keçmiş***

*Ardı 2-ci səhifədə*





***və şəhidlik zirvəsinə ucalmış Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar”***, – deyən ölkə Prezidenti cənab İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqət mərkəzində saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Azərbaycan xalqının 2020-ci ilin payızında Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Ermənistan tərəfindən işğal edilmiş ərazilərinin azad edilməsi uğrunda apardığı 44 günlük Vətən müharibəsində müzəffər ordumuzun qazandığı Zəfər şəhidlərimizin ruhuna ehtiram olmaqla yanaşı, həm də xalqımızın bir daha faciələrlə, soyqırımlarla sınağa çəkilməcəyinə təminat verir.

Həmin gün Naxçıvan Muxtar Respublikasının rayon mərkəzlərində də 20 Yanvar faciəsinin 32-ci ildönümü ilə bağlı tədbirlər keçirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Təbrizdə 20 Yanvar faciəsi ilə əlaqədar fotosərgi keçirilib

*Yanvarın 18-də Azərbaycan Respublikasının Təbriz şəhərindəki Baş Konsulluğunda 20 Yanvar faciəsində həyatlarını qurban vermiş şəhidlərin əziz xatirəsinə həsr olunmuş fotosərgi keçirilmişdir.*

Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra çıxış edən Baş konsul Əliyənnağı Hüseynov demişdir ki, 20 yanvar gecəsi Azərbaycan xalqına qarşı törədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli terror aktı idi. Həmin gün dinc əhalinin üstünə qoşun yeridilməsi ilə BMT Nizamnaməsi və beynəlxalq hüquq normaları pozulmuşdu. Məhz belə bir ağır şəraitdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev SSRİ-nin Azərbaycan xalqına qarşı həyata keçirdiyi qətliama etirazını bildirmiş, bütün təzyiqlərə baxmayaraq, dahi lider yanvarın 21-də



Azərbaycan SSR-in Moskvadakı Daimi Nümayəndəliyinə gələrək burada təşkil olunmuş izdihamlı yığıncaqda çıxış etmiş, bu ağır günlərdə doğma xalqı ilə birgə olduğunu bəyan etmişdir.

Əliyənnağı Hüseynov bildirmişdir ki, 20 Yanvar faciəsi ümumxalq hüznü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi. Bu faciəyə Azərbaycanda ilk dəfə dövlət səviyyəsində hüquqi-siyasi qiymət ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə verilmişdir. Ulu öndərin tövsiyəsi ilə Milli Məclisin 1994-cü ilin fevralında keçirilən xüsusi sessiyasında 1990-cı il yanvarın 20-də günahsız insanların qəddarcasına qətlə yetirilməsi hərbi təcavüz və cinayət kimi qiymətləndirilmişdir.

Baş konsul qeyd etmişdir ki, yanvarın 19-dan 20-nə keçən gecə tökülmüş qanlar Azərbaycan xalqının müstəqillik uğrundakı mübarizə əzmini qıra bilməmiş, igid oğul və qızlarımız şəhidlik zirvəsinə yüksələrək xalqımızın yenilməzliyini nümayiş etdirmişdir. 2020-ci il sentyabrın 27-də başlanan və Azərbaycanın şanlı qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsində müstəqil Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalanlar 30 ildən sonra mənsub olduqları xalqın cəsarət və qəhrəmanlığını yenidən bütün dünyaya nümayiş etdirdilər. Azərbaycanda şəhidlərin əziz xatirəsinə və onların ailələrinə hər zaman xüsusi diqqət və qayğı göstərilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 20 Yanvar şəhidlərinin, eləcə də Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqətdə saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir.

Sonra 20 Yanvar faciəsinə həsr olunmuş videoçarx nümayiş etdirilmiş və fotosərgi ilə tanışlıq olmuşdur.

Sərgidə İran İslam Respublikası Xarici İşlər Nazirliyinin Şimal-Qərb nümayəndəliyinin rəhbəri Əkbər İsazadə, Şərqi Azərbaycan vilayəti valiliyinin Siyasi məsələlər Baş İdarəsinin rəisi Həsən Həqiqiyan, Türkiyənin Təbrizdəki Baş konsulu Çətin Taner və Baş Konsulluğun əməkdaşları, Şərqi Azərbaycan Vilayəti Mətbuat Evinin rəhbəri Murtəza Şəfii və Təbrizdə yaşayan Azərbaycan vətəndaşları iştirak etmişlər.

**“Şərq qapısı”**

# Muxtar respublikamızın bütün rayonlarında 20 Yanvar şəhidlərinin əziz xatirəsi ehtiramla anılıb

### *Şərur rayonu*

***XX əsrin təlatümlü 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində xalqımız bir tərəfdən imperiyanın irticaçı dairələrinin Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq siyasətinin yeni təzahürü ilə qarşılaşmış, digər tərəfdən isə bir əsrdə ikinci dəfə öz müstəqil dövlətini yaratmaq uğrunda milli azadlıq mübarizəsinə qalxmışdı.***

Xalq hərəkatının genişlənməsi imperiya rəhbərlərini qorxuya saldı. Onlar bu hərəkatı boğmaq, xalqı yolundan döndərmək üçün müxtəlif planlar hazırlayıb həyata keçirirdilər. Bu sahədə imperiyanın respublikadakı əlaltıları, milli azadlıq mübarizəsi pərdəsi altında onlara xidmət edən xəyanətkarlar xüsusi fəallıq göstərirdilər.

İmperiya planlarına Naxçıvandan başladı. Bunun üçün 1990-cı il yanvarın 19-da ermənilərin Naxçıvan ərazisinə hücumu təşkil edildi. Muxtar respublika ilk şəhidlərini verdi. Ərazi bütövlüyümüzə uzanmış bu qara əllər tezliklə özünü 20 Yanvar hadisələrində göstərdi.

32 il bundan əvvəl 20 Yanvar hadisələri zamanı şəhid olan igid eloğullarımız öz qanları ilə Azərbaycanın tarixinə parlaq səhifələr yazdılar, milli azadlığımız, müstəqilliyimiz üçün yol açdılar. 20 Yanvarın Azərbaycan tarixində xalqın qəhrəmanlıq rəmzi kimi böyük əhəmiyyəti vardır. Məhz bu dönməz, mübariz xalqın birliyi sayəsində



ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev 30 illik Qarabağ, Şuşa həsrətinə son qoydu. Onun rəhbərliyi ilə xalqımız 27 sentyabr 2020-ci ildə düşmənin növbəti hücum cəhdi ilə başlanan Vətən müharibəsində “Qarabağ Azərbaycandır!” şüarı ilə qəhrəmanlıq tarixi yazdı.

Hər il olduğu kimi, bu il də yanvar ayının 20-də Şərur rayonunun idarə, müəssisə və təşkilatlarının nümayəndələri, ictimaiyyətin nümayəndələri Qanlı Yanvar hadisələrində və torpaqlarımızın müdafiəsi zamanı həlak olanların əziz xatirəsini yad etmək üçün Şərur şəhərindəki Şəhidlər xiyabanına gəlmiş, buradakı abidə önünə tər qərənfillər düzmüşlər. Həmin gün Azərbaycanın Milli qəhrəmanları Məhərrəm Seyidovun Şərur şəhərindəki, Səyavuş Həsənovun Yengicə kəndindəki büstləri, Kərim Kərimovun Qarahəsənli kəndindəki məzarı da ziyarət edilmiş, məzarların üstünə gül dəstələri qoyulmuşdur.

### *Babək rayonu*

Yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Babək Rayon İcra Hakimiyyətinin, idarə, müəssisə və təşkilatların, eləcə də rayon ictimaiyyətinin nümayəndələri Babək şəhərində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə gələrək gül dəstələri qoyub, ərazi bütövlüyümüz uğrunda canından keçən Vətən övladlarının əziz xatirəsini dərin ehtiramla anıblar.

Ürəkləri daim Vətən sevgisi ilə döyünən qəhrəman oğul və qızlarımızın canı bahasına uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq, ölkəmiz suverenlik əldə etdi. Qanlı Yanvar məzmunca terror aksiyası, faciə, bəşəriyyət qarşısında cinayət olsa da, xarakter etibarilə xalqımıza qarşı yönəldilmiş açıq hərbi təcavüz idi. Lakin Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mücadilə əzmini qıra bilmədi. Törədilmiş faciə nə qədər ağır olsa da, bu, azadlıqsevər xalqımızın mübarizliyini bir daha ortaya qoydu. Həmin gecə şəhid olan övladlarımız tariximizə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar.

Tarix sübut edir ki, Azərbaycan xalqı yenilməzdir, güclüdür, milli məsələlərdə bir



yumruq kimi birləşə bilir. Ötən əsrin əvvəllərində müstəqilliyini qazanan iradəli xalqımız 2020-ci ildə Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoydu, mənfur düşmənin ayağını doğma torpaqlarımızdan kəsdi. Qeyd edək ki, Vətən müharibəsində Babək rayonundan olan hərbi qulluqçular da xüsusi rəşadət və qəhrəmanlıq nümayiş etdirdilər. II Qarabağ müharibəsində Babək rayonundan olan 16 igid Vətən oğlu şəhidlik zirvəsinə ucaldı, 25 nəfər ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə yaralanaraq qazi oldu.

Ərazi bütövlüyümüz uğrunda canından keçən Vətən övladlarının əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Çünki qəhrəman şəhidlərimizin fədakarlığı nəticəsində xalqımız azadlıq arzusuna qovuşub. Doğma Qarabağımız məhz şəhidlərimizin canı-qanı bahasına işğaldan azad edilib.

### *Ordubad rayonu*

Ölkəmizin hər yerində olduğu kimi, Ordubad rayonunda da 20 Yanvar şəhidlərinin xatirəsi ehtiramla yad edilib. Həmin gün rayonun idarə, müəssisə və təşkilatlarının nümayəndələri Ordubad şəhərindəki Şəhidlər xiyabanına gələrək Azərbaycanın ərazi bütövlüyü, suverenliyi uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsini yad edib, şəhid məzarları üzərinə tər qərənfillər qoyublar.

Ümummilli lider Heydər Əliyev ilk olaraq bu hadisəni hüquqa, demokratiyaya



yad, humanizmə və ölkədə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab etdiyini bildirmişdir. Görkəmli dövlət xadimi 20 Yanvar hadisəsinin əhəmiyyətini nəzərə alaraq, demək olar ki, keçirdiyi hər görüşdə bu hadisənin tarixi dərslərindən bəhs etmişdir.

Ordubadda doğulmuş Rahim Vaqif oğlu Babayev də 20 Yanvar hadisəsi zamanı qəhrəmanlıqla şəhid olmuşdur. Bu gün bu bölgədən Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olmuş 54 igid Vətən övladımızın arasında Rahim Babayevin də adı ehtiramla çəkilir, xatirəsi əziz tutulur. O zaman Bakı şəhərində təhsil alan Rahim milyonlarla həmyerlimiz kimi meydanlara öz etiraz səsini ucaltmağa gəlmişdi. O gün düşmən gülləsi ondan da yan keçmədi. Həmin vaxt 19 yaşı yenicə tamam olan bu vətənpərvər gəncin günahı isə ölkədə aparılan yarıtmaz siyasətə etiraz etməsi idi.

2020-ci ilin payızında Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz 44 gün davam edən Vətən müharibəsində tarixi qələbə qazandı, ərazi bütövlüyümüz təmin olundu, haqq-ədalət öz yerini tapdı. Artıq şəhidlərin ruhu şaddır. Çünki bu müharibə nəticəsində 20 Yanvar şəhidlərinin də qisası alınmış oldu.

*Ardı 3-cü səhifədə*

## Culfa rayonu



20 Yanvar faciəsi Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, torpaq uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. 20 Yanvar ürəyi azadlıq atəşi ilə yanan, əliyalın bir xalqın ən müasir silahlarla silahlanmış güclü bir ordunun üzərində qələbə çaldığı gün idi. 20 Yanvar şəhidlərinin qəhrəmanlığı Azərbaycan xalqı və gəncləri üçün əbədi bir örnəkdir. 20 Yanvar şəhidlərinin qəhrəmanlığından nümunə götürən Azərbaycan igidləri 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımızı azad etməklə ölkəmizə Böyük Qələbəni qazandırdılar.

Hər il olduğu kimi, bu il də ölkəmizin hər yerində, o cümlədən Culfa rayonunda Vətən və xalq yolunda həlak olanların xatirəsi ehtiramla anılıb. Yanvarın 20-də rayonun idarə, müəssisə və təşkilat nümayəndələri Qanlı Yanvar faciəsində həlak olanların və şəhidlərin əziz xatirəsini yad etmək üçün Heydər Əliyev prospektindəki Şəhidlər Abidə Kompleksinin yerləşdiyi yerə gəlib, abidənin önünə tər qərənfillər qoymaqla ehtiramlarını bildiriblər.

Azərbaycan işğal altında olan torpaqlarını azad etməklə 20 Yanvar şəhidlərinin də qisasını almış oldu. Şəhidlərimizin haqları ödənilməzdir. Onların sırasında İkinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalmış 15 culfalı da var. Həmin şəhidlərin ailələri, həmçinin sağlamlığını itirərək qazi kimi evinə qayıtmış igid eloğullarımız və ailələri hərtərəfli qayğı ilə əhatə olunublar. Canlarını Vətən uğrunda fəda edən şəhidlərimiz əbədi olaraq qəlbimizdə yaşayacaq, əsrlər keçsə də, dönə-dönə xatırlanacaqlar. Onların qanının hədər axmadığını, o qanlar bahasına bugünkü azadlığımızın, müstəqilliyimizin, dövlət quruculuğumuzun, qüdrətli Azərbaycanın bünövrəsinin qoyulduğunu gələcək nəsillər də böyük ehtiramla xatırlayacaq.

## Kəngərli rayonu



Xalqımızın tarixinə qəhrəmanlıq günü kimi yazılmış 20 Yanvar faciəsinin 32-ci ildönümü Kəngərli rayonunda da qeyd olunub. Yanvarın 20-də idarə, müəssisə və təşkilatların nümayəndələri Azərbaycanın ərazi bütövlüyünü qorumaq, xalqımızın azadlığı yolunda canlarından keçmiş qəhrəman övladlarının xatirəsini yad etmək üçün Qıvraq qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış abidənin qarşısından keçərək abidə önünə çiçəklər düzüblər.

Ötən dövrdə Heydər Əliyev siyasi yolunu layiqincə və qətiyyətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, sağlamlıq imkanlarını itirənlərin sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar qəbul edilmişdir.

Bu dəhşətli hadisədən 32 il ötməsinə baxmayaraq, xalqımız o qanlı gecəni daim xatırlayır, bu faciəni törədənlərə öz nifrətini bildirir. Amma əvvəlki illərdən fərqli olaraq indi şəhidlərimizin ruhu şaddır. Çünki artıq onların qisası alınmışdır. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə başlayan və böyük tarixi qələbə ilə başa çatan Vətən müharibəsi ilə ölkəmiz öz ərazi bütövlüyünü təmin etdi. Tarixə 44 günlük Vətən müharibəsi kimi düşən bu mübarizə Azərbaycan əsgərinin gücünü bütün dünyaya nümayiş etdirdi. Bu dövrdə ordumuz "dəmir yumruq"la düşmənin başını əzərək torpaqlarımızı azad etdi, qarşı tərəfi diz çökdürdü. ***"Biz bu müharibəni zabitlərimizin, əsgərlərimizin canı bahasına qazandıq"***, – deyən Ali Baş Komandan dəfələrlə müxtəlif çıxışlarında ərazi bütövlüyümüz uğrunda canlarını fəda edən qəhrəmanlarımızın əbədi olaraq xalqımızın yaddaşında yaşayacağını bildirib.

## Şahbuz rayonu

*Yanvarın 20-də Şahbuz rayonunda idarə, müəssisə və təşkilatlarının nümayəndələri 20 Yanvar şəhidlərinə ehtiramlarını bildirərək anım tədbirində iştirak ediblər. "Şəhidlər" abidə kompleksində keçirilən tədbir zamanı kompleksin önünə tər qərənfillər düzülüb.*

Qan yaddaşımıza yazılan 20 Yanvar tariximizin qəhrəmanlıq səhifəsi, iftixar günüdür. Həmin gün tökülmüş qanlar Azərbaycan xalqının müstəqillik uğrundakı mübarizə əzmini qıra bilməmiş, igid oğullarımız şəhidlik zirvəsinə yüksələrək xalqımızın yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini bütün dünyaya, ən əsası isə faciənin təşkilatçılarına nümayiş etdiriblər.

20 Yanvar Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda savaşmaq əzmini cəsarətlə nümayiş etdirdiyi şərəfli bir missiyadır.

Artıq tarix də sübut edib ki, Azərbaycan xalqı yenilməzdir, məğrurdur. Həmrəy olmağı



bacarır. Buna 2020-ci ilin sentyabrında başlanan və 44 gün davam edən Vətən müharibəsində bütün dünya bir daha şahidlik etdi. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz dövlət-xalq-ordu birliyinin nəticəsində ərazi bütövlüyümüzü təmin etdi, şəhidlərimizin qisası alındı, torpaqlarımız işğaldan azad edilidi, tarixi ədalət öz yerini tapdı. Bu mücadilədə Şahbuz rayonunun da qorxmaz və cəsur övladları böyük şücaət göstərib, onlardan 9-u şəhidlik zirvəsinə ucalıb.

Tarixi qələbəmiz, müstəqil və qüdrətli Azərbaycan şəhidlərinin ruhuna ehtiramın ən yüksək ifadəsidir. 20 Yanvar isə qəhrəmanlıq tariximizin başlanğıcıdır. Nə qədər ki, Azərbaycan var, şəhidlərimizin xatirəsi də əbədi yaşayacaqdır.

## Sədərək rayonu

Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən artıq otuz iki il keçir. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi qalacaqdır.

Çünki ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları həmin gün canlarından keçərək şəhidlik zirvəsinə ucalıblar. Böyük itkilərlə, günahsız insanların qətlə yetirilməsi ilə nəticələnən bu faciə, eyni zamanda xalqımızın mübarizliyini, əyilməzliyini və məğrurluğunu bir daha nümayiş etdirib.

Həmin dövr Sədərək sakinləri üçün də asan olmayıb. 1989-cu ilin dekabr ayında muxtar respublikada SSRİ sərhədlərinin dağıdılması Moskvanı bərk hiddətləndirmişdi. Qısa müddət sonra mərkəz Azərbaycan xalqının azadlıq istəyini boğmaq üçün imperiya qoşunlarını Bakıya yeridərək qanlı 20 Yanvar qırğınını törətdi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya hücumdan hələ 8 saat əvvəl ermənilər keçmiş sovet qoşunlarının köməyi ilə muxtar respublikaya hücuma keçdilər. Sədərək,



Günnüt və Havuş kəndləri 1990-cı il yanvarın 19-da səhər, təxminən, saat 11-dən etibarən daha intensiv hücumlara məruz qaldı. Həmin vaxt ermənilər əsas qüvvələrini Sədərək istiqamətinə yönəltmiş və Kərki kəndini işğal etmişlər. Sədərək intensiv top atəşinə tutulmuş, kənddə ilk şəhidlər verilmişdi. Həmin döyüşlərdə yurdumuzun hər tərəfindən igid oğullar Sədərəyə gələrək mərdliklə döyüşmüş, düşmənə bir qarış belə, torpaq güzəştə gedilməmişdi. Sədərəkli gənclər Vətən müharibəsində də qəhrəmanlıq göstərmiş, döyüşlərdə 10-dan çox gənc Vətən müharibəsi iştirakçısı olmuş, 6 igid isə şəhadətə yüksəlmişdir.

20 Yanvar faciəsinin 32-ci ildönümü Sədərək rayonunda da anılıb. Rayonun idarə, müəssisə və təşkilatlarının nümayəndələri Sədərək kəndindəki Şəhidlər xiyabanını ziyarət edərək Vətən yolunda qurban getmiş insanların xatirəsinə ehtiramlarını bildiriblər.



## Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib

Şanlı tariximizin qan yaddaşına qızıl hərflərlə yazılmış 20 Yanvar faciəsi Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. O müdhiş gecədə həlak olan Vətən oğulları xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar, bugünkü müstəqil Azərbaycan dövlətinin tarixinə həmin faciəni şərəf və qəhrəmanlıq səhifəsi kimi yazdılar.

O gün Azərbaycanın Vətən yolunda öz canlarından keçərək şəhidlik zirvəsinə ucalan, ölümsüzlüyə yüksələn oğul və qızlarının məzarları bu gün hər birimizin müqəddəs ziyarət yerinə çevrilib.

Otuz iki ildir ki, şəhidlərimizin ruhuna hörmət əlaməti olaraq məzarları ziyarət edilir, onların keçdikləri şərəfli ömür yolunun yeniyetmə və gənclərimizə örnək olmasını bir daha xatırlatmaq üçün məqsədyönlü tədbirlər görülür.

Bu il də yanvarın 20-də saat 12$^{00}$-da Azərbaycanın bütün ərazisində, o cümlədən Naxçıvan Muxtar Respublikasında doğma yurdunun, xalqının azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Nəqliyyatın, xətdə olan sərnişin qatarlarının və piyadaların hərəkəti bir dəqiqəlik dayandırılıb.

**Xəbərlər şöbəsi**

## Ötən ilin yekunları müzakirə olunub



***Naxçıvan Şəhər İcra Hakimiyyətində 2021-ci ildə Naxçıvan şəhərinin sosial - iqtisadi inkişafının yekunları və altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasının qarşıya qoyduğu vəzifələrə həsr olunmuş müşavirəni İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov açıb.***

Müşavirədə Naxçıvan Şəhər Maliyyə İdarəsinin rəisi Ramil Kərimov, Vergilər İdarəsinin rəisi Rəşad Əliyev, Statistika İdarəsinin rəisi Ramil Gülməmmədov və Təhsil Şöbəsinin müdiri Baba Əliyev çıxış edərək aid sahələr üzrə 2021-ci ildə görülmüş işlərlə bağlı ətraflı məlumat veriblər.

İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxışında bildirib ki, ötən il iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çox investisiya yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş investisiyaların həcmi 1,7 faiz artıb.

Qeyd olunub ki, Naxçıvan şəhərində Türkiyə-Naxçıvan Dostluq Parkının, 2 saylı Nikah evi və 3 saylı Notariat ofisinin, Qaz Kompressor Stansiyasının, Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin, modultipli xəstəxananın və Uzunoba Təlim-Məşq İdman Kompleksinin tikintisi ötən ilin ən layiqli töhfələrindəndir. Hazırda "ASAN xidmət" Mərkəzinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin inzibati binasının, Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin inzibati binasının, Texnologiyalar Parkının, Kimya-Biologiya Təmayüllü Liseyin, "Gənclər Yaşayış Kompleksi"nin, 400 yerlik avtomobil parkının, "STEAM" Tədris Mərkəzinin, uşaq bağçasının, Uşaq Kitabxanasının, məscidin və bir yaşayış binasının tikintisi davam etdirilir. Bəhs olunan dövrdə "1001 Home" mağazasının, tələbə yataqxanasının, altı yaşayış binasının, "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının şəhərciyində yaşayış binasının və Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsinin binasının yenidən qurulması başa çatdırılıb, yeddi yaşayış binasının, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının şəhərciyində idman zalının, Naxçıvan Dövlət Universitetinin rektorluq binasının və Duzdağ Radio-Televiziya Ötürücü Stansiyası binasının yenidən qurulması davam etdirilir, bir kəhrizin təmiri və bir subartezian quyusunun tikintisi tamamlanıb.

Vurğulanıb ki, 2021-ci ildə dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 27 layihə üzrə istehsal obyektləri yaradılıb, 6 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması davam etdirilir. Aqrar sektorun inkişafı üçün görülən işlər kənd təsərrüfatı məhsullarının istehsal həcmini artırıb, 2021-ci ildə Naxçıvan şəhərində 3 min 621 ton tərəvəz, 1084 ton meyvə, 387 ton kartof, 121 ton üzüm, 2 min 298 ton bostan məhsulları tədarük olunub. 967 hektar sahədə payızlıq əkin üçün şum qaldırılıb, 961 hektar sahədə payızlıq səpin aparılıb ki, bunun da 664 hektarı buğda, 297 hektarı isə arpadır.

***Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsində kollegiya iclası keçirilib.***



İclası giriş sözü ilə Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi Hafiz İslambəyli açaraq bildirib ki, 2021-ci ildə Naxçıvan Muxtar Respublikası büdcəsinə kənar dövlət maliyyə nəzarəti tədbirləri çərçivəsində 11 müəssisə, idarə və təşkilat üzrə tədbirlərin planlaşdırılması, proqramları, işçi planları hazırlanaraq maliyyə və uyğunluq auditləri həyata keçirilib. Eyni zamanda dövr ərzində 10 müəssisə, idarə və təşkilat üzrə analitik tədbir aparılıb və müvafiq qaydada nəticələri rəsmiləşdirilib. Bununla yanaşı, 2021-ci ildə həyata keçirilmiş kənar dövlət maliyyə nəzarəti tədbirləri, ümumilikdə, 80 milyon 565 min 200 manat məbləğində vəsaiti əhatə etməklə, 52 milyon 120 min 800 manatı keçirilmiş auditlərin və 28 milyon 444 min 400 manatı isə aparılmış analitik tədbirlərin payına düşüb.

Diqqətə çatdırılıb ki, 2022-ci ildə də Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi qarşısında qoyulan vəzifələrin layiqincə yerinə yetirilməsi məqsədilə kənar dövlət maliyyə nəzarəti tədbirlərinin qanunvericiliklə müəyyən edilmiş qaydaya uyğun olaraq, öz səlahiyyətləri daxilində icra edilməsini təmin edəcəkdir. İdarə, həmçinin qanunvericiliklə müəyyən edilərək iş planına salınmış ekspert-analitik tədbirlərin həyata keçirilməsini və maliyyə-büdcə ekspertizası ilə bağlı audit tədbirlərinin aparılmasını təmin etmək üçün işlərini daha da gücləndirəcəkdir.

Sonra çıxışlar olub.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Paralimpiya Federasiyasının ötən ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı iclası keçirilib

İclası giriş sözü ilə açan federasiyanın sədri Nicat Babayev bildirib ki, fiziki imkanları məhdud şəxslər arasında idmanın reabilitasiyanın bir növü kimi təbliği, onların aktiv şəkildə paralimpiya bölmələrinə cəlb edilməsi daim diqqət mərkəzində saxlanılır. İdmançılar, o cümlədən paralimpiyaçılar hərtərəfli qayğı ilə əhatə olunublar. Ötən il ərzində Paralimpiya Federasiyasının Şərur rayonunda ağırlıqqaldırma, Ordubad rayonunda isə tennis bölmələri istifadəyə verilib, mövcud bölmələrin maddi-texniki təchizatı yaxşılaşdırılıb.



Azərbaycan Paralimpiya Komitəsinin mütəxəssisləri tərəfindən federasiyanın yerli bölmə rəhbərləri və məşqçiləri üçün onlayn seminar, tennis ilə məşğul olan paralimpiyaçılar üçün isə təlim təşkil olunub, həmçinin federasiyanın üç paralimpiyaçısı və bir məşqçi-müəllimi qolbol idman növü üzrə milli komandanın təlim-məşq toplanışına cəlb olunub. Nicat Babayev əlavə edib ki, istedadlı paralimpiyaçıların ölkə və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilib və nəticədə, onlar 1 qızıl, 2 gümüş və 1 bürünc medal qazanıblar. Ötən il ilk dəfə olaraq Avropa çempionatında Azərbaycan Milli Komandasının heyətində muxtar respublika paralimpiyaçısı da iştirak edib.

Muxtar respublikamızda idman və idmançılara dövlət qayğısının ən yüksək səviyyədə olduğunu deyən gənclər və idman naziri Ramil Hacı bildirib ki, nazirlik idmanın inkişafı və təbliğinə nail olmaq üçün muxtar respublikanın bütün idman federasiyaları ilə qarşılıqlı fəaliyyət göstərir və bu sahədə dövlət siyasətini həyata keçirir. Qeyd olunub ki, bədən tərbiyəsi və idman sahəsi üzrə 189 tədbir keçirilib, eyni zamanda Naxçıvan idmançıları tərəfindən ölkə səviyyəli yarışlarda 47, beynəlxalq turnirlərdə 14, Avropa çempionatında 1, dünya çempionatlarında isə 20 medal olmaqla, ümumilikdə, 82 medal qazanılıb. Bunlardan 27-si qızıl, 32-si gümüş, 23-ü bürünc medaldır və bu, Naxçıvan idmanı tarixində medalların əyarına görə qazanılan ən yüksək göstəricidir. Bütün bunlar Naxçıvanda idman siyasətinin düşünülmüş şəkildə aparılmasının bariz nümunəsidir.

Ramil Hacı vurğulayıb ki, muxtar respublika idmanında davamlı inkişaf, qazanılan uğur və nailiyyətlərə baxmayaraq, qarşımızda mühüm vəzifələr dayanır. İdman federasiyaları və aidiyyəti qurumlarla birgə "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası istiqamətində işlər davam etdirilməlidir. Gənc nəslin, əhalinin, xüsusən də sağlamlıq imkanları məhdud şəxslərin idmana cəlbi, bu sahədə kütləviliyin artırılması, idmanın müxtəlif növləri üzrə muxtar respublika, ölkə və beynəlxalq səviyyəli yarışların təşkili, idmançılarımızın irimiqyaslı yarışlarda iştirakı təmin edilməlidir. Xarici əməkdaşlıq əlaqələri artırılmalı, digər ölkələrdə uğurla sınaqdan keçmiş təcrübələr tətbiq olunmalı, təcrübəli mütəxəssislərin Naxçıvana dəvət olunması davam etdirilməlidir.

Paralimpiya Federasiyasının sədr müavini Vüqar Məmmədovun çıxışından sonra federasiyanın fəaliyyətində ötən il qeydə alınan nöqsanlar müzakirə edilib, ötən il ölkə səviyyəli yarışlarda uğur qazanan idmançılar mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Maliyyə Tədris Mərkəzində ilin ilk təlimi olub



Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində maliyyə və mühasibatlıq üzrə mütəxəssislər üçün "Beynəlxalq standartlara uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılması" mövzusunda növbəti təkmilləşdirici təlim keçirilib. İki gün, 4 tədris saatı müddətində planlaşdırılan təlimə muxtar respublikada fəaliyyət göstərən büdcə təşkilatlarının hüquq-mühafizə sahəsində çalışan 12 maliyyə və mühasibat işçisi cəlb edilib.

Gündəliyə uyğun olaraq mərkəzin direktoru Mehriban İmanova təlimin mahiyyəti haqqında ümumi məlumat verib, təlimlərin keçirilməsində məqsədin dövlət büdcəsindən maliyyələşən təşkilatlara beynəlxalq mühasibat uçotu standartlarına əsasən maliyyə-mühasibat işinin aparılması, müasir tələblərə uyğun olaraq sintetik uçotun aparılması və bu sahədə mütəxəssislərin biliklərinin artırılması olduğunu bildirib.

Təlimin ilk günü Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin əməkdaşı Arzuman İmanov tərəfindən büdcə təşkilatlarında Mühasibat Uçotunun Beynəlxalq Standartlarına uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılmasının nəzəri əsasları açıqlanmış, təşkilatlarda tətbiq edilən uçot registrlərinin mahiyyəti, memorial order və yığım cədvəllərinin formaları, Baş kitab və Dövriyyə balansının tərtib edilməsi haqqında məlumat verilib. Təlim zamanı baş vermiş maliyyə-təsərrüfat əməliyyatları üzrə məlumatların ilkin uçot sənədləri və analitik uçot registrləri əsasında sistemləşdirilmiş şəkildə toplanması, mühasibat uçotu registrlərində əks etdirilməsi və ümumiləşdirilməsi qaydalarının elmi izahı verilib.

Növbəti gün "Beynəlxalq standartlara uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılmasının praktik izahı" moduluna uyğun olaraq təşkilatlarda baş verən müxtəlif əməliyyatların sintetik uçotunun aparılması və uçot registrlərinə işlənməsi ilə bağlı praktik iş yerinə yetirilib.

Sonda iştirakçılara sertifikatlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin
## *Orta İxtisas Polis Məktəbinə 2022-2023-cü tədris ili üçün kursant qəbuluna dair elan*

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi Orta İxtisas Polis Məktəbinə əyani təhsil üzrə 30 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə – "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin və "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin Nizamnaməsi"nin tələblərinə uyğun olaraq Azərbaycan dilini sərbəst bilən, tam orta təhsilli, boyu azı 170 santimetr, yaşı 30-dan çox, 20-dən az olmayan və müddətli həqiqi hərbi xidmət keçmiş Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum edilmiş (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən şəxslər müsabiqəyə buraxılmırlar.

Sənədlərin qəbulu 2022-ci il yanvar ayının 24-dən mart ayının 5-dək bazar günləri istisna olmaqla hər gün saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- *şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*
- *tam orta təhsil haqqında sənəd (attestatın əsli və notarial qaydada təsdiq olunmuş surəti);*
- *yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*
- *hərbi bilet (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*
- *əmək kitabçası (olanlar üçün);*
- *arayış (ailə tərkibi və yaşayış yeri haqqında, işləyənlər üçün isə əlavə olaraq iş yerlərindən);*
- *xasiyyətnamə (yaşayış və ya iş yerindən);*
- *nikah haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*
- *9x12 santimetr ölçüdə 2 ədəd, 4x6 santimetr ölçüdə 4 ədəd fotoşəkil.*

İlkin sənədləri Orta İxtisas Polis Məktəbinə təhsilə uyğun gələn namizədlərə müvafiq formada ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunurlar.

Namizədlər Naxçıvan Qarnizonu Mərkəzi Hərbi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün 8 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün 6 dəfə; qaçış 100 metr məsafəyə 15 saniyə və 1000 metr məsafəyə 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması 20 dəfə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya Naxçıvan Qarnizonu Mərkəzi Hərbi həkim komissiyalarından keçə bilməyən namizədlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt namizədin komissiya sədrinə müraciəti olduqda baxılır.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı ixtisas seçimində iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan dilində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir. Namizədlər bu məqsədlə həmin mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 2 ildir.

Təhsil müddəti ərzində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur.

Məzunlara Hüquq-mühafizə fəaliyyəti ixtisası və "polis kiçik leytenantı" xüsusi rütbəsi verilir.

Seçmə komissiyalarının vaxtı və qəbulla bağlı digər məsələlər barədə ətraflı məlumatlar Daxili İşlər Nazirliyinin www.din.nmr.az internet saytında yerləşdiriləcəkdir.

***Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: 036-545-08-10 (155, 156, 160).***

## Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi
## *2022-2023-cü tədris ili üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Hüquqşünaslıq ixtisası üzrə əyani təhsilə kursant qəbuluna dair elan*

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasına Hüquqşünaslıq ixtisası üzrə əyani təhsil üzrə 200 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 santimetr, çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, həqiqi hərbi xidmətə yararlı, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2022-ci ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq) Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2022-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında həqiqi hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum edilmiş (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2022-ci il yanvar ayının 24-dən mart ayının 5-dək bazar günləri istisna olmaqla hər gün saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsində həyata keçiriləcəkdir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- *şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);*
- *təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında Daxili İşlər Nazirliyinə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd;*
- *yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*
- *ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);*
- *oxuduğu təhsil müəssisəsi tərəfindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün verilmiş xasiyyətnamə;*
- *9x12 santimetr ölçüdə 2 ədəd, 4x6 santimetr ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).*

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: 036-545-08-10 (155,156,160).

Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə qəbulun ilkin şərtlərinə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər fiziki hazırlıq imtahanı (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma – çəkisi 80 kiloqramadək olanlar üçün – 8 dəfə, 80 kiloqramdan yuxarı olanlar üçün – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması – 20 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 20 dəfə) verməli, nazirliyin seçmə komissiyasından uğurla keçdikdən sonra Naxçıvan Qarnizonu Mərkəzi Hərbi həkim komissiyasında müayinə olunub "Polis Akademiyasında təhsilə yararlı" olması barədə rəyi Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsinə təqdim etməlidirlər.

Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu anda abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya Naxçıvan Qarnizonu Mərkəzi Hərbi həkim komissiyalarından keçə bilməyən və ya Naxçıvan Qarnizonu Mərkəzi Hərbi həkim komissiyasına göndəriş aldığı gündən 15 gün ərzində müvafiq rəyi təqdim etməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır.

Müsabiqəyə buraxılan abituriyentlərin siyahısı lll ixtisas qrupu fənləri üzrə qəbul imtahanlarına buraxılmaları üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul olunmuş kursantlar 13 avqust-14 sentyabr 2022-ci il tarixdə akademiyada ilkin hazırlıq kursuna cəlb edilir, dərslər 15 sentyabrda başlamaqla tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir.

Təhsil müddəti kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara Hüquqşünaslıq ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

Seçmə komissiyasının vaxtı barədə ətraflı məlumatlar Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin www.din.nmr.az internet saytında, Polis Akademiyası haqqında ətraflı məlumatlar isə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin *www.mia.gov.az* və akademiyanın *www.pa.edu.az* internet saytlarında yerləşdiriləcəkdir.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Səbuhi Həsənov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 64**